# Böyük Zəfər qazandın, ay Vətən, gözün aydın!..

*44 günlük döyüşlər başa çatdı. Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə qəhrəmanlıq tarixi yazdı. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan ordumuz düşmənin müdafiə səddini az müddətdə, döyüşlərin ilk günlərində darmadağın etdi. Xalq bunu Vətən müharibəsinin qələbə ilə başa çatacağının əsgəri zəmanəti bildi. Torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Döyüşənlərin dedikləri Vətən müharibəsinə münasibətdi, müharibə təəssüratlarıdı...*

**"Azərbaycan Ordusu"**

**Zabit Niyaməddin Əhmədov:**

- Vətən müharibəsi başlayanda əsgərlərimizin yüksək döyüş əzmi, qələbə ruhu bir zabit kimi mənim də ürəyimi dağa döndərdi. Döyüşə belə bir coşqu ilə başlamağın qələbələrlə nəticələnəcəyinə inandıq. Əsgərlərə dedim ki, sizə inanıram, inanıram ki, döyüş əmrini məsuliyyətlə yerinə yetirəcəksiniz. Bu inam həm də komandanlığın inamıdı. Deməli, Vətənin inamıdı. Əsgərlərimizin baxışlarında qələbə işığı gördüm.

Döyüşlər başladı.

Döyüşlər təsdiqlədi ki, ümidim gerçəkləşəcək. Düşmən inadkarlıqla müdafiə olunmağa çalışsa da, buna gücü çatmırdı. Ordumuz onun müdafiəsini yardı. Bu, qələbələrimizin başlanğıcı oldu. Neçə-neçə strateji yüksəklik, yaşayış məntəqəsi işğaldan azad edildi. Azərbaycan Ordusunun döyüşlərdə qazandığı qələbələr düşməni vahimələndirdi, qorxutdu. Bu qorxu düşmən ordusunun dağılmasının başlanğıcı oldu. Dayaq məntəqələri dağıldıqca, mövqelərdən sıxışdırıldıqca erməni əsgərləri də, zabitləri də silah-sursatlarını, döyüş texnikalarını atıb qaçırdılar. Ermənistan humanitar atəşkəsə nail olmaq üçün havadarlarına yalvardı. Atəşkəs elan edilən gecə Gəncəyə raket atdı. Bu, əsgərlərimizin qələbə ruhunu daha da yüksəltdi.

Düşmən gördü ki, Azərbaycan Ordusu dinc əhaliyə atılan mərmilərin, raketlərin qisasını döyüşlərdə alır. Həm də artıqlaması ilə. Əsgərlərimizdən biri gəncəlidi. Gəncəyə raket atıldığını eşidəndə özü xəbər tutana kimi ailəsi ilə maraqlandım. Əsgərə ailəsi ilə bağlı hər hansı üzüntülü xəbərin olmadığını deyəndə, onun səssiz sevincini heç zaman unutmayacam.

Gəncəli əsgər təmkinlə "Komandir, mən dünyaya Gəncədə göz açsam da, Vətənim Azərbaycandı. Bu gün döyüşdüyüm bölgədi mənim Vətənim. Əsgər yoldaşlarım da mənim kimi düşünürlər...". Əsgəri köksümə sıxdım. Yəni, əsgərlərimiz yüksək mənəvi kamilliyə malikdirlər.

Döyüş-döyüş yaşayış məntəqələrimizi, şəhərlərimizi işğaldan azad edirdik. Məğlubiyyəti etiraf etməyən düşmən dağılmış ordusunu muzdlular, azyaşlılar, yaşlılar hesabına komplektləşdirməyə cəhd göstərirdi. Onlar da müzəffər ordumuzun hücumlarının qarşısında dayana bilmirdilər. Qaçırdılar. Ermənilərin döyüşdən qaçanlarıyla döyüşü davam etdirənləri arasında silahlı qarşıdurmalar olduğunu biz də eşitmişik. Biz də bilirdik, düşmənin ordu rəhbərliyi də bilirdi ki, bu vəziyyətdə döyüşü davam etdirərlərsə, dağınıq ordusu tamamilə məhv ediləcək. Suqovuşanın, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Xudafərin körpüsünün işğaldan azad edilməsi döyüşçülərimizi tam qələbəyə səfərbər etmişdi. Bu səfərbəretmə Şuşanın işğaldan azad edilməsiylə nəticələndi.

Vətən müharibəsi qələbəmizlə başa çatdı. Torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Bu, xalqla ordunun sıx birliyinin, hərbi qulluqçuların yüksək döyüş və mənəvi-psixoloji hazırlığının nəticəsidir.

Mən hərbçi peşəsini sevərək seçmişəm. Həmişə də hərbçi olmağımla fəxr etmişəm. Vətən müharibəsinə əsgərlərimlə birlikdə coşqu ilə başladıq. Qələbə qazanıldı. Qaliblər sırasında biz də varıq. Qələbədən sonra hərbçi olmağımla daha böyük səviyyədə qürurlanıram.



Vətən müharibəsi başa çatdı. Ancaq müharibənin yaralarının sağalmasına müddət lazım gələcək. Əsgərlərimiz ordu sıralarından tərxis olunduqdan sonra işğaldan azad edilmiş kəndlərimizin, şəhərlərimizin yenidən qurulmasında iştirak edəcəklərini bildirirlər.



Biz qalib gəldik.

Biz Qarabağı Azərbaycana qaytardıq!

**Əsgər Nurlan Salehov:**

- Ermənistan işğalçı dövlətdir. Orta məktəbdə oxuyanda atamdan, müəllimlərimdən eşitmişdim ki, BMT Təhlükəsizlik Şurası torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistana qarşı dörd qətnamə qəbul edib. Ermənistan bu qətnamələri yerinə yetirməyib. Nə dünya dövlətləri, nə də beynəlxalq təşkilatlar buna ciddi münasibət bildirmədi. Beynəlxalq təşkilatların həll edə bilmədiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini Azərbaycan Ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə 44 günə həll etdi. Həm də birdəfəlik həll etdi.

Vətən müharibəsinin əsgər iştirakçılarının sırasında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları da var idi. Onlar həqiqi hərbi xidmətdən sonra yenidən bu günün döyüşlərinin iştirakçısı olmaq istəyiblər. Oldular. Mərdliklə döyüşdülər, Ali Baş Komandanın əmri ilə Vətən müharibəsini qəti qələbə ilə başa çatdırmaq üçün döyüşdülər. Şəhidliyin qəhrəmanlıq, qəhrəmanlığın qələbə olduğunu bilib döyüşdülər. Xidmət yoldaşım əsgər Vəli Vəliyev sentyabrın 28-də döyüşdən əvvəl dedi ki, nə gözəl səhər açılır. Onda qət etdik ki, xalqımızın ən gözəl səhərləri döyüşlərlə açılacaq, yəni, o səhərləri xalqımıza Azərbaycan əsgəri yetirəcək.

Sentyabrın 27-si günü hər bir azərbaycanlı əminliklə "Azərbaycan Ordusu qalib gələcək, torpaqlarımız işğaldan azad ediləcək" deyirdi. Azərbaycan əsgərinin yüksək döyüş və mənəvi-psixoloji hazırlığına inanıb deyirdi.

Biz komandanlığın, deməli, Ali Baş Komandanın döyüş əmrini böyük məsuliyyətlə, sevgilərlə yerinə yetirdik. Döyüşlərin ilk günlərində düşmənin müdafiə zolağı tamamilə dağıdıldı. Bu, döyüşənlərin döyüş əzmini də, qələbə ruhunu da yüksəltdi. Strateji əhəmiyyətli yüksəkliklər ermənilərdən təmizləndikcə, kəndlərimiz azad edildikcə qələbə qazandığımızı duyurduq. Onu da duyurduq ki, xalq bu qələbələri sonuncu döyüşə yaxınlaşdıran uğurlar hesab edir.

Vətən müharibəsində hər qələbə əhəmiyyətlidir. Mən də, döyüşçü yoldaşlarım da təkcə özümüzün iştirak etdiyimiz döyüşləri deyil, yaşayış məntəqələrini işğaldan azad edən digər döyüşləri də çox böyük sevinclə qarşılayırdıq. Qələbələri döyüşə-döyüşə yaşamaq bizim hər birimizə sonsuz qürur verirdi. Mən də, əsgər yoldaşlarım da bir vətəndaş olaraq qalib Azərbaycan Ordusunu təbrik edirik.

Əzimov soyadlı əsgərin Ermənistan ordusunda döyüşən erməni əsgərinə xitabən dediklərini xatırlayıram: Ordunuzda baş verənləri mən bilirəmsə, sən məndən də yaxşı bilirsən. Yaxşı bilirsən ki, darmadağın etdiyimiz ordunuzda sizi adam yerinə qoymurlar. Hər gün təhqir olunursan, fiziki əzablarla üzləşirsən. Neçə-neçə əsgərinizin alçaldıldığını da görübsən. Onda düşünübsənmi ki, sən də belə aqibətlə üzləşə bilərsən. Ondan sonra Azərbaycan əsgərinin gülləsiylə öləsən, ömrün boyu gözükölgəli yaşayarsan. Döyüşdən qaçanlarınıza qarış. Qaçmasan, öldürüləcəksən. Qaçan erməni canını qurtardı. Qaçmayan öldürüldü. Qaçan məğlub ordunun əsgəri, zabiti kimi qaçdı, döyüşü davam etdirib ölənlər məğlub ordunun əsgəri, zabiti kimi öldürüldü.

Biz qalib gəldik. Biz torpaqlarımızı işğaldan azad etdik. Gözlərimiz aydın!

**Əsgər Saleh Zeynallı:**

- Vətən müharibəsi qələbəmizlə başa çatdı. Bu müharibə Azərbaycanda hamını əsgərləşdirmişdi. Döyüşənlər xalqın dəstəyini aydınlığıyla hiss edirdi. Bir məhəllədə yaşayanların yüzlərlə kotlet bişirib cəbhəyə göndərdiyini də yaxşı xatırlayıram, bir ananın onlarla əlcək toxuyub göndərdiyini də. Azərbaycan əsgərinin bunlara ehtiyacı olmayıb, ancaq xalq ürəyindən keçəni edirdi, qələbə naminə edirdi. Hamı özünü müharibə iştirakçısı bilirdi. Biz bu ruhla döyüşdük. Biz bu ruhla qələbə qazandıq.

Vətən müharibəsi Azərbaycan Ordusunun qüdrətini təsdiqlədi. Digər ərazilər də, Şuşanın da işğaldan azad edilməsi biz döyüşçülərin döyüş əzmini, qələbə ruhunu daha da yüksəldirdi. Biz həm də Ali Baş Komandanın xalqa müraciətlərindən ruhlanırdıq. Xalq əmin idi ki, ordu sərkərdənin bütün əmrlərini uğurla yerinə yetirəcək.

Döyüşdük. Düşmənin ordusu darmadağın edildi. Vətən müharibəsinin ilk günlərində nisbətən müqavimət göstərən düşmən sonralar bunu bacarmadı - mövqeləri, dayaq məntəqələri, döyüş texnikaları, canlı qüvvələri məhv edildi. Şuşanın işğaldan azad edilməsi Vətən müharibəsində dönüş oldu. Düşmən atəşi dayandırmaq təklifini qəbul etdi, üçtərəfli bəyanat imzalandı...



Biz qalib gəldik.

Biz Vətən müharibəsini qələbə ilə başa çatdırdıq. Azərbaycanın torpaqları işğaldan azad edildi, ərazi bütövlüyü bərpa olundu. Biz Azərbaycan Ordusu kimi qüdrətli ordunun əsgəri olmağımızla qürurlanırıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir fikrin qüruru hamımızın ürəyini dağa döndərir: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun, Azərbaycan xalqına! Yaşasın Azərbaycan!..

**(Ardı 5-ci səhifədə)**

# Böyük Zəfər qazandın, ay Vətən, gözün aydın!..



(Əvvəli 4-cü səhifədə)

**Əsgər Emil Əsgərov:**

- 2016-cı ilin Aprel döyüşlərində yeniyetməydim. Bu ilin iyulunda hərbi xidmətə çağırılmamışdım. 2016-cı ildə də, bu il də yaşımın azlığına görə döyüşlərdə iştirak edə bilmədiyimə təəssüflənmişdim. Döyüşlərdən sonra döyüşlərə həsəd aparmışdım. Hərdən mənə elə gəlirdi ki, döyüşlərdə mən də iştirak etmişəm, döyüşlərin qəhrəmanlarıyla yanaşı mövqelərdə mən də atışmışam, düşməni sıxışdıranların, qaçmağa vadar edənlərin sırasında mən də olmuşam.



İndi əsgərəm. Bu ilin sentyabrın 27-nə kimi mən də döyüş növbətçiliyi aparmışam. Əsgər yoldaşlarım kimi mən də Ali Baş Komandanın döyüş əmrini gözləyirdim. Sentyabrın 27-də xidmət etdiyim hərbi hissə də əks-hücum əməliyyatına cəlb edildi. Qısa müddətdə düşmənin hücumunun qarşısı alındı. Ali Baş Komandanın əmriylə ordu hissələrimiz əks-hücuma keçdi. Bu, Vətən müharibəsi idi.

Düşmən elə bilirdi ki, keçilməz müdafiə səddi yaradıb. Belə deyildi. Azərbaycan Ordusu döyüşün ilk günlərində düşmənin müdafiə səddini yardı, dayaq məntəqələrini, mövqelərini darmadağın etdi, döyüşlərdə düşmən onlarla döyüş texnikasını, artilleriya qurğusunu, canlı qüvvəsini itirdi.

Müharibədə qazanılan qələbə həmişə döyüşçülərin qələbə ruhunu yüksəldib. Döyüşənlər daha coşqunluqla döyüşürdülər. Bilirdilər ki, qazanılan hər mövqe qələbəsi ümumi son qələbə üçündü. Strateji əhəmiyyətli yüksəkliklər, kəndlər, qəsəbələr, şəhərlər azad edildikcə özümüzü Şuşaya, Cıdır düzünə aparan yolda hiss edirdik. Şuşanın işğaldan azad edilməsi ordumuzun böyük qələbəsi oldu...

Vətən müharibəsi qələbəmizlə başa çatdı. Ordumuz torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüz bərpa olundu. Qürurlanıram ki, Vətən müharibəsində mən də iştirak etmişəm...

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Toğrul Əhmədov:**

- Hərbi xidmətdə olanda biz də torpaqlarımızı işğaldan qurtaracaq döyüşlərin olmasını arzulayırdıq. İstəyirdik ki, Ali Baş Komandan döyüş əmri versin. İstəyirdik ki, ordu sıralarından qalib əsgər kimi tərxis olunaq.

Hərbi xidmətimi başa çatdırdım, ordu sıralarından tərxis olundum. Ancaq ürəyim məni əsgər yoldaşlarımın yanına çəkirdi, ürəyim yenə ordu ilə, səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlərlə döyünürdü. Yenidən hərbi xidmətə qayıtmaq, qələbə döyüşündə iştirak etmək istəyirdim. Düşüncələrimə çökən bu istək həm də ömrümə hopmuşdu. Bu istək mənim ömrümün axarını dəyişdi. Aradan illər keçəndən sonra, yenidən ordu sıralarına qayıtdım. İndi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusuyam, baş əsgərəm.

Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatında mənim xidmət etdiyim hərbi hissə də iştirak edirdi. Etiraf edim ki, yenidən hərbi xidmətə qayıtmağımı özümün özümə həyat, yaşamaq hədiyyəsi hesab edirəm.

Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı Vətən müharibəsi kimi davam etdirildi. Düşmən Azərbaycan Ordusunun hücumlarına müqavimət göstərə bilmirdi. Ona görə mövqelərindən döyüşə-döyüşə geri çəkilirdi. Ordumuz neçə-neçə strateji əhəmiyyətli yüksəkliyi, yaşayış məntəqəsini azad etdi. Bu qələbələr yeni qələbələrlə tamamlandıqca düşmən bir məğlubiyyətin acısını unutmağa macal tapmamış yeni məğlubiyyətlərin acısını yaşayırdı.



Qazanılan qələbələr, bu qələbələrin ictimaiyyətdə yaratdığı yüksək coşqu əsgərlərin də, zabitlərin də yüksək döyüş əzmini, qələbə ruhunu daha da yüksəldirdi. Bu ruh Ali Baş Komandanın Vətən müharibəsi kimi davam edən döyüşləri qələbə ilə başa çatdırmaq istəyi idi. Bu istək hər birimizin təkcə hərbçi borcumuz deyildi, həm də vətəndaşlıq borcu idi. Döyüşlərdə yüngül yaralananlar da olurdu. Onlar qısamüddətli müalicəyə də getməkdən imtina edirdi, "Son nəfəsiməcən döyüşəcəm, qələbəyəcən döyüşəcəm", - deyirdilər. Bu ruh əsl qələbə ruhu idi və hər döyüşçü hər döyüşə bu ruhla gedirdi...

Düşmən məğlub oldu.

Vətən müharibəsi qələbəmizlə başa çatdı, torpaqlarımız işğaldan azad edildi. Üçtərəfli bəyanatın şərtlərinə əsasən ermənilər Kəlbəcərdən, Ağdamdan, Laçından çıxmalıdılar. Kəlbəcərdən çıxma müddəti daha on gün uzadıldı. Bu humanist güzəşt müqabilində ermənilər nə edir? - evləri, meşələri yandırırlar. Eyni hərəkət Ağdamda da müşahidə olunur. Yəni, dünya ermənilərin vandallığını, təkcə azərbaycanlılara, türklərə, islam dininə deyil, bəşəriyyətə də düşmən kəsildiyini görür. Mən qürurlanıram ki, belə bir millətin işğalçılıq niyyətini sonlandıranların sırasında olmuşam. İllər keçəcək, 2020-ci ilin sentyabrın sonlarından başlayan 44 günlük döyüşlər zaman-zaman xatırlanacaq. Dostlar qürurla xatırlayacaq, düşmənlər, düşmənin "dəyirmanına su tökənlər"i təəssüflə, ürək ağrılarıyla xatırlayacaq.

Mən hərbçiyəm, hərbçi kimi də Azərbaycan Ordusunun şəxsi heyətini bu qələbə münasibətilə təbrik edirəm. Müharibəsiz illərdə işğaldan azad edilmiş ərazilərimiz yenidən qurulacaq.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elşən Cəfərli:**

- Vətən müharibəsi qələbəmizlə başa çatdı. Erməni işğalına son qoyuldu. Torpaqlarımız işğaldan azad edildi. İctimaiyyət Vətən müharibəsinin son gününü böyük coşqu ilə qarşıladı. Bu coşqu düşmənə məğlubiyyət acısı ilə bərabər bir həqiqəti də yaşatdı: azərbaycanlılar döyüşməyi də bacarır, qələbə qazanmağı da, qələbələrə görə sevinməyi də.

Həqiqi hərbi xidmətdə olanda komandirimizə deyərdik ki, torpaqlarımızı işğaldan azad edəcək döyüşlərin iştirakçısı olmaq istəyirik. Komandirimiz "Bu, hamımızın istəyidi. Vaxtında döyüş əmri də veriləcək, döyüşəcəyik də, qələbə də qazanacağıq. Belə istəyə, belə döyüş əzminə görə sağ olun", - komandirimiz belə deyərdi. Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı əmri veriləndə bizim hərbi hissə də döyüşə cəlb edildi. Döyüşlərin Vətən müharibəsi kimi davam etdiriləcəyini biləndə, o vaxtlar komandirimizin dediklərini xatırladıq: Döyüş əmri veriləcək, döyüşəcəyik, qələbələr qazanacağıq.

Döyüşdük. 28 il müdafiəsini möhkəmləndirən, onu keçilməz sədd adlandıran düşmən Azərbaycan Ordusunun hücumunun qarşısında dayana bilmədi. Düşmənin müdafiə səddi dağıdıldı. Komandirimiz dedi ki, bu, düşmənin döyüş əzminə güclü təsir göstərib. Düşmənin müdafiə döyüşlərində çəkinə-çəkinə döyüşməsi, dayaq məntəqələrinin dağıdılması, mövqelərindən geri çəkilməyə məcbur olması Vətən müharibəsində kimin güclü, kimin zəif olduğunu təsdiqləyirdi. Strateji əhəmiyyətli yüksəkliklərdən sıxışdırıldıqca, kəndlər, sonra şəhərlər azad edildikcə, düşmən hiss edirdi ki, məğlub olacaq. Əslində, hiss edirdi ki, məğlub olub. Bu məğlubiyyətin acığını Mingəçevirə, Gəncəyə, Tərtərə, Bərdəyə raketlər atmaqla çıxmaq istəyirdi. Elə bilirdi ki, dinc əhalinin raket zərbələrinə tuş gəlməsi Azərbaycan Ordusunun döyüş əzmini azaldar, düşmən nisbətən özünə gəlməyə macal tapar. Ancaq əsgərlərimiz, zabitlərimiz onun murazını gözündə qoydu, daha əzmlə döyüşdü, yüzlərlə kəndi, qəsəbəni, şəhəri, sonra Şuşanı işğaldan azad etdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dedikləri əsgər və zabitlərin də, xalqın da qələbə sevincini ifadə edir: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun, Azərbaycan xalqına! Yaşasın Azərbaycan!". Şuşanın işğaldan azad edilməsi də, bu qələbəyə görə ölkə başçısının dedikləri də Vətən müharibəsində düşmənin ən ağır məğlubiyyəti oldu.

Vətən müharibəsi Ali Baş Komandanın sərkərdəlik qüdrətinin, Azərbaycan Ordusunun gücünün, xalqla ordunun birliyinin, bu baxımdan "güc birlikdədir!" şüarının gerçəkliyini təsdiqlədi.

Mən Vətən müharibəsinin iştirakçısı olmağımla fəxr edirəm...

**Əsgər Mətin Ələkbərli:**

- Tanıdığım qaçqınların yurd həsrətini mən də duyurdum. Vətən həsrətinin nə olduğunu bəlkə o vaxtlar dərk etmişəm. Mənimlə yaşıd olanlar atalarının xatirələrindən söz açanda onlar kimi mən də qəhərlənirdim. Yəni, qaçqın və köçkünlərin nisgili mənə də yad deyildi. Səmimiyyətimə inanın, həmin məqamlarda hamımız daha tez böyümək, hərbi xidmətə getmək, torpaqlarımızı işğaldan azad etmək üçün döyüşmək istəyirdik. Mən də həmyaşıdlarım kimi bu niyyətlə yaşamışam, hərbi xidmətə gedəcəyim günü gözləmişəm...

Hərbi xidmətə çağırıldım...



Sentyabrın 27-də Ermənistan hücum etdi. Düşmən belə bir təxribatı iyulda da törətmək istəmişdi. Onda da ciddi döyüşlər olmuşdu, ağır itki verən düşmən geri çəkilmişdi. Ordumuzun hissələri bu dəfə də mərdliklə döyüşdü, hücumun qarşısını aldı. Ali Baş Komandanın əmriylə əks-hücum başladı. Komandirimiz bizə dedi ki, əks-hücum Vətən müharibəsinin başlanğıcıdı.

Biz də cəsarətlə döyüşürdük. Verilən əmrləri böyük məsuliyyətlə yerinə yetirirdik. Komandirlərimiz məlumat kimi bildirdi ki, artilleriyaçılarımızın son dərəcə dəqiq atışları düşmənin dayaq məntəqələrini, mövqelərini darmadağın edib, yüzlərlə döyüş texnikası, artilleriya qurğuları, minlərlə canlı qüvvə itirən düşmən ordumuzun hücumlarının qarşısında dayana bilmədi. Bundan sonra düşmən mövqelərdən geri çəkilməyə məcbur oldu. Bu, bütün döyüşçülər kimi, bizim də döyüş əzmimizi, qələbə ruhumuzu yüksəldirdi...

Qələbə qazandıq. Qazandığımız qələbədən illərlə danışılacaq...